# Maraqla qarşılandı



Martın 16-da Qəbələ Mədəniyyət Mərkəzində rayon xalq teatrının hazırladığı İsi Məlikzadənin "Gəl qohum olaq" iki pərdəli komediyasının premyerası



olmuşdur. Tamaşanın quruluşçu rejissoru Elşən Salehov, rejissoru Müsavər Qasımov, musiqi tərtibatçısı Xəyal Gəncimov, quruluşçu rəssamı Malik Ağayevdir. Əsər tamaşaçılarda xoş təəssürat yaratmışdır.

**«Qəbələ».**

# Sərbəst güləş üzrə rayon birinciliyi

***5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür. Bu tarixin Azərbaycanda bədən tərbiyəsi və idman günü kimi qeyd olunması təsadüfi deyil. 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib. Bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini göstərmiş, Azərbaycanı dünyada idman ölkəsi kimi tanıdıb.***

Artıq ənənəvi hal olaraq hər il Azərbaycanda 5 Mart Bədən Tərbiyəsi və İdman Gününü kimi təntənə ilə qeyd olunmaqdadır. Rayon gənclər və idman idarəsinin tədbirlər planına əsasən bu günlərdə yeniyetmələr arasında sərbəst-güləş üzrə rayon birinciliyi keçirilmişdir.



Birinciliyin açılış mərasimində iştirakçılara bu günün yaranma tarixi barədə məlumat verilmişdir. Bildirilmişdir ki, bu tarix Prezident cənab İlham Əliyevin bədən tərbiyəsi və idman gününün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd edilir. Həmçinin birinciliyin keçirilməsində məqsəd yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, idmanın kütləviliyinə nail olmaqdan ibarətdir.

Açılış mərasimindən sonra meydan birincilik uğrunda mübarizəyə başlayan güləşçilərin ixtiyarına verildi. Yarışda iki yaş qrupunda 16 çəki dərəcəsi üzrə 50-dək yeniyetmə güclərini sınamışdır. Yarışın keçirilməsi Azərbaycan Güləş Federasiyasının Qaydaları əsasında rayon gənclər və idman idarəsi tərəfindən təsdiq olunmuş hakimlər heyətinə həvalə edilmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən birinciliyin yekununda qaliblərə gənclər və idman idarəsinin diplomları təqdim olunmuşdur.

**✍ Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev.**

# «Ölkəmizi tanıyaq»: növbəti tur-aksiya başladı

***Artıq dördüncü ildir ki, Azərbaycanın ümumtəhsil məktəblərinin 9—11-ci sinif şagirdlərinin «Ölkəmizi tanıyaq» devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur.***

***Dövlət başçısı cənab İlham Əliyevin tövsiyəsinə əsasən keçirilən tur-aksiyalar gözəl ənənə halını alıb.***



Bu xeyirxah layihədə əsas məqsəd şagirdləri ölkəmizin müxtəlif bölgələrinin tarixi, müasir həyatı, adət-ənənələri, xüsusiyyətləri ilə tanış etməkdir. Bundan başqa şagirdlər tur-aksiyalar zamanı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hər bir regionunun sosial-iqtisadi inkişafı, şəhər və rayonların gündən-günə gözəlləşən, yeniləşən siması haqqında əyani, dolğun təsəvvür əldə edirlər.

Mart ayının 16-da tur aksiya çərsivəsində Gədəbəy, Göygöl, Gəncə, Samux, Şəmkir rayonlarından 225 nəfərə qədər şagird rayonumuza gəlmişdir. «Karvansaray» otelin önündə gənc qonaqlarımızı Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon gənclər və idman idarəsinin məsul işçiləri qarşılamışlar.

Şagirdlər Qəbələdə olacaqları günlər ərzində rayonumuzun tarixi məkanları, muzeyləri, əvəzedilməz təbii mənzərələri və iqtisadiyyatı ilə yaxından tanış olacaq, turizm obyektlərinə, o cümlədən «Tufandağ» Xizəkçilik Kompleksinə, qədim Qəbələ şəhərinin ərazisindəki tarix və mədəniyyət qoruğuna baş çəkəcək, xatirə məqsədi ilə ağac əkəcəklər. Rayonumuzda azərbaycanlılarla birlikdə yaşayaş etnik qruplardan biri olan udilərin dünyada kompakt şəkildə yaşadıqları ən böyük yaşayış məntəqəsi Nic qəsəbəsinə səfər edərək udilərin mədənityyəti, adət-ənənələri və qədim alban kilsəsi ilə tanış olacaqlar.

Tur-aksiya iştirakçılarının asudə vaxtlarında musiqili-əyləncəli proqramlar, intellektual oyunlar təşkil olunacaqdır.

Bir sözlə rayonumuzun gənc qonaqlarını maraqlı və yaddaqalan proqram gözləyir.

**«Qəbələ».**

# Fədakar müəllim

***Azərbaycan Respublikası müstəqil, beynəlxalq aləmdə nüfuz qazanmış bir dövlət kimi dünya birliyi ölkələri ilə ictimai-siyasi, iqtisadi həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edir.***

***Bu baxımdan respublikamızda xarici dillərə olan tələbat zərurətə çevrilmişdir. Müasir məktəbin ən mühüm vəzifələrindən biri də bir və ya iki xarici dildə danışmağı, tərcümə etməyi, ünsiyyət qurmağı, bacaran şəxsiyyəti formalaşdırmaqdır.***

Rayonumuzda fəaliyyət göstərən onlarla xaric dil müəllimləri var ki, onlar dövrün tələblərini nəzərə alaraq dərslərini müasir tələblər səviyyəsində qurur, şagirdlərə mükəməl nəzəri bilik və öyrətdikləri dil sahəsində yüksək nitq qabiliyyəti aşılayırlar.

Belə müəllimlərdən biri Nohurqışlaq kənd tam orta məktəbin ingilis dili müəllimi Fazil Atakişiyevdir.



O, 1978-ci ildə ADDU-nin fransız - ingilis dilləri fakultəsini bitirdikdən sonra Tüntül kənd tam orta məktəbində müəllimliyə başlamışdır.

1983-cü ildən Fazil müəllim fəaliyyətini Nohurqışlaq kənd tam orta məktəbində davam etdirir. Bu illər ərzində o, məktəbdə direktor müavini, daha sonra direktor vəzifələrində çalışmışdır.

1998—2003-cü illərdə Azərbaycan Respublikası müəllimlərinin qurultaylarının nümayəndəsi olmuşdur.

2 mart 2007-ci ildə Qəbələ rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva Fazil Atakişiyevin VII «a» sinfində apardığı ingilis dili dərsinin qonağı olmuşlar.

Fazil müəllim həmin dərsi belə xatırlayır:

"Dərs zamanı ölkə Prezidentinin otağa daxil olduğunu gördükdə bir an özümü itirdim. Lakin cənab Prezidentin və ölkənin birinci xanımının mənimlə, şagirdlərlə səmimiyyətlə, gülər üzlə salamlaşması, hal-əhval tutması mənə cəsarət verdi, həyəcanım keçib getdi. Bu görüş mənim və yeddincilərin yaddaşında silinməyən bir xatirə oldu".

Dərs dediyi illər ərzində Fazil müəllimin şagirdlərinin 50 nəfərindən çoxu qəbul imtahanlarında ingilis və fransız dillərindən yüksək nəticələr əldə etmiş və bir çoxu bu sahədə yaxşı mütəxəssis kimi tanınmışdır.

Söhbət zamanı Fazil müəllim qeyd etdi ki, 2006-cı ildə məktəbimizin yeni binasının açılış mərasimində iştirak edən millət vəkili Fəttah Heydərov xarici dil kabinetində oldu və mənə şagirdlərin xarici turizm sahəsinə marağının artırılmasını məsləhət gördü.

Bunu işində əsas götürən Fazil Atakişiyev bu sahədə də böyük müvəffəqiyyət əldə etmişdir. Məktəbin məzunlarından Vüsal Allahverdiyev, Afiq Atakişiyev, Şamo Yunusov, Səxavət Seyidməmmədov Fransanın Paris, Bezanson, Strasburq şəhərlərinin ali məktəblərinə daxil olub və təhsillərini müvəffəqiyyətlə başa vurub.

Uzun illərdir pedaqoji fəaliyyətlə məşğul olan Fazil Atakişiyev bu gün də əvvəlki həvəslə işləyir.

Bu günlərdə Nohurqışlaq kənd tam orta məktəbində VIII sinifdə ingilis dili dərsində olduq. Dərsdə eyni zamanda Nohurqışlaq, Vəndam 1, 2 nömrəli Tüntül kənd tam orta məktəblərinin ingilis dili müəllimləri, təhsil şöbəsinin əməkdaşları iştirak edirdilər.

**(Ardı 6-cı səhifədə).**